# Maraqlı görüş

Təbriz Yaqubov adına Bum Qəsəbə Tam Orta Məktəbində tez-tez maraqlı tədbirlər keçirilir. Bu dərs ilində tələbə adını qa-zanmış məktəbin keçmiş məzunları ilə keçirilən görüş də belə tədbirlərdəndir. Görüşdə X-XI siniflərin şagirdləri iştirak etmişlər.

Tədbiri direktor müavini Azadə Hacıyeva açmışdır. Sonra məktəbin direktoru Məlahət Dadaşova məzunların bu ilki nailiyyətlərindən danışmış, onlara təhsildə uğurlar arzulamışdır.

Maraqlı keçən görüşdə BDU-nun tələbələri Aişə Əzəmmədova, Nigar Müzəfərli, ATU-nun tələbəsi Aytac Əzəmmədova, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbəsi Murad Rəşidov çıxış edərək müəllimlərinin zəhmətini heç vaxt unutmayacaqlarını bildirmişlər.

Sonda məktəbin müəllimi Xuraman Aləmmədova, şagirdlərdən Əli Qarazadə, Şölə Həmidova, Namiq Umarov və Cəmilə Valehli çıxış edərək öz ürək sözlərini söyləmişlər.

✍ **Nazlı ƏDİLLİ,**
**məktəbin şagirdi.**

# Təbrik edirik!



**Əziz və sevimli balamız Fatimə, 1 yaşının tamam olması münasibətilə səni təbrik edirik.**

**Arzu edirik ki, böyüyüb Vətənimizə, elimizə- obamıza ailələrimizə layiqli bir övlad olasan, səninlə bütün yaxınların fəxr etsin!**

***Babaların Rəfail, Arif, nənələrin Məlahət, Bəsti, anan Fəridə, atan Rübail, bibilərin, xalaların, dayın.***

# Əhalinin tibbi müayinəsi davam edir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən 18 yaşından yuxarı əhalinin tibbi müayinəsi davam edir. Müayinə üçün müraciət edənlər rayon mərkəzi xəstəxanasının və müalicə diaqnostika mərkəzinin həkim və digər tibb işçilərindən, yaradılmış şəraitdən razılıq edirlər. Bu günədək onbeş min nəfərə qədər vətəndaş müayinə olunmuşdur. Rayon mərkəzinə gəlmək imkanı olmayanlar səyyar həkim briqadaları tərəfindən yaşayış yerlərində, bəziləri isə evlərində müayinə edilirlər.

***«Qəbələ».***

# Novruz çərşənbələri



***Hörmətli oxucular, Novruzun ilk çərşənbəsi olan su çərşənbəsi barədə qəzetimizin ötən sayında məlumat vermişik. Bu sayımızda isə digər üç çərşənbə haqqında məlumatları qısaca olaraq nəzərinizə çatdırırıq.***

**Od çərşənbəsi**

Novruz bayramı ərəfəsində keçirilən ikinci çərşənbə—od çərşənbəsi insanın yaradılış prosesinin ikinci mərhələsinin, od komponenti ilə bağlılığının mifik təzahürüdür. Bu il od çərşənbəsi fevralın 28-nə təsadüf etmişdir. Bu çərşənbə axşamı adətən od qalanır. Odun, tonqalın olması istiliyin rəmzidir. Od çərəşnbəsi günü qazanlar qaynadılmalı, ocaqlar boş qalmamalıdır.



Vətənimiz Azərbaycanda oda, ocağa hörmət, onun müqəddəsliyi heç vaxt danılmamışdır. Çünki neçə əsrlər bundan əvvəl insanların odu kəşf etməsi bəşər tarixində böyük dəyişikliklər yaratmışdır.

Od çərşənbəsi axşamı hər evin qarşısında tonqalın qalanması həmin ilin isti, bərəkətli keçməsinin nişanəsidir. Planetimizin istilik mənbəyi günəş, od alov həmişə insanlar tərəfindən sevilib. Bəzən günəş ilahi səviyyəsinə qaldırılıb, ona səcdə edilib. Oda tapınanların (sitayiş edənlərin) nümayəndələri yer üzündə hələ də qalmaqdadır.

Od çərşənbəsində də digər çərşənbələrdə olduğu kimi süfrələr zəngin olmalıdır. İnanclara görə bu süfrələrin bollu, bərəkətli olması ilimizin şirin və sevinc dolu, bərəkətli keçməsinə səbəb olur.

**Yel çərşənbəsi**

Novruz bayramı ərəfəsində keçirilən yel çərşənbəsi də yaranış prosesinin üçüncü mərhələsini əks etdirir. Əgər torpaq və su insan yaradılışının materialını, maddi əsasını təşkil edirsə, od və yel bu materialın yaradılmasında kənar vasitəçi kimi iştirak edir. Belə ki yaradılışla bağlı dörd ünsür mifində yaradılışın maddi əsası olaraq torpaq və su əsas götürülürsə,bu materialın yaradılışa çevrilməsi prosesinə təkan verən yel və oddur. Yaradılışda torpaq və su sabitlik,, yellə od isə dinamiklik əlamətidir. Bu mənada yel, hava birbaşa ilahi qüvvənin iradəsinin ifadəsi kimi çıxış edir. Qədim türk mifoloji mətnlərində bu mifin məntiqindən irəli gələrək yel daha çox canlı, çevik bir varlıq kimi təsəvvür edilmişdir. Bu təsəvvürlər daha çox «Yel baba» mifik obrazlarında cəmləşmişdir. Bəzi hallarda mənfi çalarla da xatırlanan «yel baba» əksərən müsbət obrazda özünü göstərir. Bu il yel çərşənbəsi martın 7-nə təsadüf edir.



**Torpaq çərşənbəsi**

Bu il martın 14-də qeyd olunacaq sonuncu ilaxır sərşənbə torpaq çərşənbəsidir. Yuxarıda da qeyd etdiyimiz kimi, torpaq insan yaradılışının maddi əsası olmaq etibarılə bu prosesdə son dərəcə əhəmiyyətli bir mövqeyə malikdir. Torpaq müqəddəsliyi türk mifoloji görüşlərində geniş yer tapmışdır. Bununla bərabər torpaq anlayışı vətən, yurd, el-oba anlayışları ilə yanaşı adı gedən, buna görə daha da müqəddəsləşən anlayışdır. Novruzun gəlişi ilə torpraq oyanır. Bu, dirilmə, canlanma əlamətidir. Bu oyanışla, canlanma ilə sanki insanlara da yeni ruh, yeni həvəs gəlir. Onlar yeni ilin bol ruzisinin əsasını yaratmaq üçün ana torpaqda daha həvəslə çalışırlar.

**«Qəbələ».**

# Qrip kəskin virus xəstəliyidir

Qrip kəskin virus xəstəliyi olub, yüksək intoksikasiya, yuxarı tənəffüs yollarının zədələnməsi əlamətləri və ikincili bakterial flora ilə şərtlənən ağırlaşmalara meyilliyi ilə səciyyələnir.

Qrip virusları xarici mühitdə az davamlıdır. Onlar aşağı temperatura yaxşı dözür və qızdırılma və qaynadılma zamanı tezliklə məhv olurlar. Qrip viruslarının ultrabənövşəyi şüalara və adi dezinfeksiyaedici maddələrin təsirinə qarşı yüksək dərəcədə həssas olduğu qeyd edilir.

Qrip zamanı infeksiya mənbəyi-xüsusilə yüngül, silinmiş və simptomsuz formalarda olan xəstələrdir. Xəstənin yoluxdurucu olması inkubasiyanın sonu, xəstəliyin başlanmasına bir neçə saat qalmış; xəstəliyin ilk 2-5-ci günləri müşahidə olunur.

Xəstəlik kəskin başlayır. Hərarət 38-39 dərəcə və yuxarı olur. Titrətmə, qusma ola bilər. İntoksikasiyanın dərəcəsi, həmçinin tempraturun həddi xəstəliyin ağırlığından asılıdır.

Böyük yaşlı uşaqlar baş ağrısı, göz almalarında, qarında ağrılardan, yuxunun pozulmasından şikayətlənirlər.

Kataral əlamətlər ə vəlcə burunun tutulması, sonra az miqdarda ifrazatın gəlməsi ilə müşayiət olunur. Burun-udlaqla yayılmış hiperemiya, badamcıqların cüzi şişkinliyi, yumşaq və bərk damağın selikli qişasında nöqtəvari qansızmalar müşahidə olunur.

Xəstəliyə fikir verməyib işə çıxmaq çox təhlükəlidir. Bu halda xəctə yalnız özünü yox, digər insanları da təhlükə altına salmış olur.

Hərarət yüksək olduqda xəstə mütləq yataq rejiminə əməl etməlidir. Hərarət düşdükdən 1-2 gün sonra əvvəl yarıyataq, sonraa isə adi rejimə keçmək olar. Şirə, çay, kompot, mineral suların daha çox qəbul edilməsi hərarət zamanı çox vacibdir.

Yüksək hərarət zamanı xardal kağızlardan, tibbi bankalardan və s. qan dövranı sürətləndirən vasitələrdən istifadə etmək olmaz!

Soyuqdəymə və qrip xəstəliklərinin müalicəsində antibiotiklərdən istifadə etmirlər. Məsələ ondadır ki, bu xəstəlikləri viruslar törədir. Antibiotiklər isə viruslara yox, yalnız bakteriyalara təsir edir. Bəzən soyuqdəymə və qrip zamanı ağırlaşmalar (ağ ciyərin, orta qulağın və s. iltihabı) inkişaf edir. Bu zaman antibiotiklər təyin olunur.

Dərman preparatları həkim tərəfindən təyin olunur. Bu preparatların xəstəliyin ilk 24-36 saat ərzində istifadəsi yaxşı effekt verir—xəstəliyin müddəti və xəstəliyin fəsadlaşması riski azalır. Bundan əlavə virus əleyhinə praparatları sağlam ailə üzvləri ekstremal profilaktik tədbir kimi istifadə edə bilərlər.

✍ **Sədiyar HÜSEYNOV,**
**GEM-in şöbə müdiri.**

# ELAN

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 10 iyun 1998-ci il tarixli 11 saylı qərarına əsasən Böyük Pirəli kənd sakini **Ədilov Füzuli Bahadil oğluna** verilmiş JN seriyalı 223 F nömrəli (kod 40602018) **torpağın mülkiyyətə verilməsinə dair şəhdətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 dekabr 2002-ci il tarixli 17 saylı qərarı ilə Nohurqışlaq kənd sakini **Məmmədov Rafiq Bahəddin oğluna** verilmiş JN seriyalı 128 F nömrəli (kod 40616028) **torpağın mülkiyyətə verilməsinə dair şəhdətnamə** itdiyi üçün etibarsız sayılır.


**«QƏBƏLƏ»**
**qəzetinin reklam xidməti**
**205-19-14, 205-15-56**



**«QƏBƏLƏ»**
**qəzetinə 2017-ci il üçün abunə yazılışı davam edir**



Redaktor
Varis Yaqubov

*TƏSİSÇİLƏR:*
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*
*Məsul katib*
*Qüdrət Səmədov.*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.